**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR NƏSRDƏ MİSTİFİKASİYA İDEYA-ESTETİK VASİTƏ KİMİ

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Xəyalə Eldar qızı Cəfərova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmlər doktoru, professor
**Tahirə Qəşəm qızı Məmməd**

Rəsmi opponentlər: filologiya elmlər doktoru, professor
**Flora Sultan qızı Naciyeva**

filologiya elmlər doktoru, dosent
**Mahirə Həmid qızı Quliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Dəyanət Almaz oğlu Cümənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: akademik, filologiya elmləri doktoru, professor
__________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının
elmi katibi: filologiya üzrə fəlsəfə doktoru,dosent
__________________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın
sədri: filologiya elmləri doktoru, dosent
__________________ **Məmməd İrac oğlu Əliyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrdə ictimai-siyasi həyatda yaşanan son dərəcə mürəkkəb, xüsusilə baş verdikləri dövrdə izahları çətin, ilk baxışda səbəbləri görünməz olan və buna görə də irrasionalist təsir bağışlayan hadisələr – dünya müharibələri və inqilablar, millətlərin və fərdlərin azadlıq uğrunda apardığı mübarizədə bəzən yanlış istiqamətə yönləndirilib özgələşməsi, daha qaranlıq girdablara düçar olması Orta əsrlərin dini mistifikasiyasından fərqli dünyəvi mistifikasiya situasiyaları üçün geniş meydan açdı. Fəlsəfə və bio-psixoloji nəzəriyyələrin fərdin mahiyyətinə, şüur və şüuraltına yönəlməsi insanın yeni sirr qatlarının açılmasına, onun mürəkkəb mövcudiyyətinə, qaranlıq tərəflərinə də maraq oyadırdı. Siyasətin, sosial münasibətlərin görünməz tərəfləri, qlobal proseslərin güclənməsi də hadisələrin mistifikasiya paradiqmasından qavranılmasını gücləndirirdi. İnsanın gerçəkliyə münasibətlər kompleksində, xüsusən incəsənət sahəsində mistifikasiyanın funksiyası və ifadə halları genişlənməkdə idi. Sürrealizmin artıq insanın təhtəlşüurunu hədəf alması eyni tendensiyanın nəticələrindəndir. Ümumiyyətlə, götürdükdə bütün modern cərəyanlar bu və ya digər şəkildə mistisizmə və mistifikasiyaya müraciət etmişlər. Modernizmlə sələf-xələf münasibətləri ilə bağlı olan postmodernizm də mistifikasiyanı nəinki dəf etməmiş, bəzən kütləvilik pərdəsi altında onun daha universal şəkildə özünü büruzə verməsi üçün şərait yaratmışdır. Bu baxımdan ədəbi-bədii fikirdə mistifikasiyanın din kontekstində təşəkkül tapmasının tədricən XIX-XX ərlərdə dünyəviləşməsi, dini və dünyəvi mistifikasiya kəsişməsinin ədəbiyyat, eləcə də incəsənətin bütün sahələrinin yeni görmə bucağında özünəməxsus yer qazanması problemin öyrənilməsini aktuallaşdırır.

Dünya ədəbiyyatının modernist və postmodernist sənətkarlarının hər birinin yaradıcılığında mistifikasiyadan bədii-estetik vasitə kimi istifadə olunmuş və oxucunun baxışlarını həyatın, kainatın gizlinlərinə yönəltməkdə yazıçılar bu üsuldan uğurla istifadə etmişlər. Mistifikasiyanın ifadə üsulları bədii mətni zənginləşdirir və onun cazibəsini artırır. Mistifikasiya yozumlara imkan açdığı üçün

bu sahədə aparılan tədqiqatların davamlılığına ehtiyac var; mətn sanki hər dəfə yenidən oxunur.

Bu baxımdan mistifikasiyaya dünya ədəbiyyatşünaslığı ilə yanaşı müasir Azərbaycan reallığında mövcud olan elmi-nəzəri və milli prinsiplər mövqeyindən yanaşılmalı və bu kontekstdə 1960-1980-ci illər nəsri, o cümlədən Anar, Yusif Səmədoğlu, Kamal Abdulla və s. kimi yazıçıların əsərləri müqayisəli-tipoloji aspektdə öyrənilməlidir.

Ədəbi təsir problemi çoxanlamlıdır və onun meyarları subyektiv və obyektiv tərəfləri ilə mövcuddur. Bu mənada dünya miqyasında yayılan ədəbi təcrübənin milli özünəməxsusluqlarını üzə çıxarmaq üçün müqayisəli araşdırmalar aparmağa, ədəbiyyatın öndə gələn simalarının yaradıcılığı əsasındahadisəyə aydınlıq gətirməyə ehtiyac var. Mistifikasiya problemindəndünya ədəbiyyatşünaslığında mətn təhlilləri prosesində, həm də nəzəri paradiqma kimi bəhs edilmişdir[1, 2, 3, 4, 5, 6,7,8]. Lakin o, Azərbaycanda sistemli şəkildə tədqiq olunmamış və yeni üsullar içərisində bir o qədər də diqqət çəkməmişdir. Bu bədii-estetik vasitənin Azərbaycan ədəbiyyatındakı özəllikləri Məmməd Qocayev, Qorxmaz Quliyev, Asif Hacı, Tahirə Məmməd, Cavanşir Yusifli, Pərvanə İsayeva, Afaq Əsədovanın elmi-

---

[1]Попов, П. С. Мистификация // – Новый мир. – 1935. №3, – с. 282-293.

[2] Масанов, Ю.И. Литературные мистификации // Современная библиография, – 1940. №1 (18), – с. 126-145.

[3]Реизов, Б. Г. Почему Стендаль назвал роман «Красное и чёрное» // Из истории европейских литератур. – Ленинград: Издательство Ленинградского университета, – 1970. – с. 170-186.

[4] Hassan, I. Making sense: the trials of postmodern discourse // New literary history, – 1987. Vol. 18, №2, – p. 437-459.

[5]Эко, У. Заметки на полях «Имени розы» // Иностранная литература, – 1988. №10, – с. 88-104.

[6]Дмитриева, Е. Удовольствие от ограничения: Загадочный писатель Жорж Перек: Жорж Перек и комбинаторная литература // – Новое литературное обозрение. Теория и история литературы, критика и библиография, – 2010 (июнь). №106 (6), – с. 219-231

[7]Балазанова, О. Знаменитые мистификации / О.Балазанова. – Москва: Фолио, – 2009. – 480 с.

[8] Мария Г. Мистификайия как литературное явление (Черубина Де Габриак) // Polilog. Studia Neofilologiczne. 2013. № 3. – p. 65–75

tənqidi yazılarında araşdırdıqları tədqiqat predmetləri daxilində müəyyən səviyyədə elmi və ədəbi-təcrübi həllini tapmışdır. Bu istiqamətdə Tahirə Məmmədin "Neosufizm: yaradıcılıq və nəzəriyyə" monoqrafiyası xüsusilə qeyd olunmalıdır. Çünki sufizm və neosufizm qarşılaşdırması mistika və mistifikasiya probleminin araşdırılmasını da stimullaşdırır. Adı çəkilən ədəbiyyatşünasların tədqiqatlarında mistifikasiya ayrıca tədqiqat predmeti kimi götürülmədiyi və Azərbaycan ədəbiyyatında özünüifadə üsulları öyrənilmədiyi, Qərb ədəbiyytı ilə bu istiqamətdə müqayisələr aparılmadığı üçün problemin araşdırılması öz aktuallığını qoruyub saxlayır. Dünya ədəbiyyatşünaslığında çap olunmuş nəzəri tədqiqatlar mövzunun işlənməsi baxımından diqqət çəksə də, bizim milli ədəbiyyat təcrübəsi əsasında yaranmadığı üçün həmin nəzəriyyələrin tətbiqi məsələlərinə də yaradıcı yanaşılmaya ehtiyac var. Eyni zamanda, Qərb ədəbiyyatında mistifikasiyanın təhlili məsələsinə kənardan, Azərbaycandan baxış da mətnin yeni oxunuşu və dəyərləndirilməsi üçün əhəmiyyətli ola bilər.

**Dissertasiyanın elmi yeniliyi**. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə mistifikasiya problem müasir Azərbaycan nəsrinin ədəbi-estetik dəyərləri baxımından tədqiq edilmiş; dünya ədəbiyyatı kontekstində çağdaş Azərbaycan nəsri mistifikasiyanın ifadəsi baxımından öyrənilmiş; konkret nümunələr ədəbi təsir, fəlsəfi-estetik, poetik dəyərlər baxımından elmi təhlilə cəlb edilmişdir. Təqdim olunmuş yazıçıların yaradıcılığı fantastik realizm fenomeni, elmi nəzəriyyələrin, qlobal tarixi hadisələrin ədəbi əksetdirmədə universallığı gücləndirməsi və mistifikasiyanın bu baxımdan əlverişliliyi, təhkiyədə mistifikasiyadan istifadə, insanların inam və inanclarından, ədəbi ənənədən həmin məqsədlə istifadə və s. müasir nəsrin axtarışları fonunda araşdırılmışdır.

**Müdafiəyə çıxarılan müddəalar.** Dissertasiya işində aşağıdakı müddəalar irəli sürülüb müdafiə olunur:

- Mistifikasiya ədəbiyyatda həyatın sirli məqamlarına diqqət yönəldən, eyni zamanda, mətnin informativliyini, poetikasını zənginləşdirən ideya-estetik vasitələrdən biridir;

- O, mətndəki ideyanı, müəllif mövqeyini, insan və onun əlaqədə olduğu kainatın mahiyyətini bədii yollarla açamaq üçün

istifadə olunur və fərqli ifadə üsulları mövcuddur;

- Mistifikasiyanın incəsənətdə inkişafına XIX-XX əsrin elmi kəşfləri, şüur axını və psixoanalitik nəzəriyyə, dünyada yaşanan qlobal proseslər, inqilab və müharibələr güclü təkan vermişdir;

- XX əsrin modernist və postmodernist cərəyanlarında rastlaşdığımız mistifikasiya hadisəsi orta əsrlərin dini mistikasından bəhrələnsə də, mahiyyət və funksiya istiqamətində ondan fərqlənir;

- XX əsr mistifikasiyası mifoloji, dini, təsəvvüfi qaynaqlardan, onların təcrübi nailiyyətlərindən, obraz və situasiyalarından bəhrələnmişdir;

- Müasir dünya, o cümlədən də Azərbaycan ədəbiyyatında mistifikasiyadan istifadə geniş yayılmışdır. Bunu nəsr təhkiyəsində daha qabarıq şəkildə müşahidə etmək mümkündür.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi müasir Azərbaycan nəsrini dünya ədəbiyyatı kontekstində mistifikasiya fenomeninin elmi-nəzəri prinsipləri əsasında təhlil etmək, söylənmiş ayrı-ayrı mülahizələri ümumiləşdirmək və vahid elmi konsepsiya şəklində təqdim etməkdir.

Dissertasiyada aşağıdakı vəzifələrin gerçəkləşdirilməsi nəzərdə tutulmuşdur:

- mistifikasiya probleminin ədəbi- nəzəri prinsiplərinin təhlili və təsnifatı;

- mifologiya-folklor, din və təriqət ənənələrinə bağlılığın tipoloji faktı kimi dünya ədəbiyyatında mistifikasiyanın sənətkarlıq nöqteyi-nəzərindən formalaşdırdığı nümunələrlə təhlili;

- ədəbiyyatşünasların elmi-nəzəri müddəaları kontekstində müasir Azərbaycan ədəbiyyatının ədəbi nailiyyətlərini dəyərləndirmək;

- mistifikasiya fenomeninin mahiyyətini açmaq və Azərbaycan nəsrini bu anlamda qiymətləndirmək, milli-mənəvi özünəməxsusluqlar, ümumbəşəri özəlliklərin ideya-bədii sistemdə əksini tapan məqamlarını təhlil etmək.

**Tədqiqatın obyekti və predmeti.**Tədqiqatın obyektini XX əsr dünya nəsrində mistifikasiyanın dominantlıq təşkil etdiyi yaradıcılıq nümunələrinin poetikası fonunda müasir Azərbaycan nəsrinin ədəbi-estetik təcrübəsinin təhlili təşkil edir.

Tədqiqatın predmeti isə nəsrdə, ümumiyyətlə ədəbiyyatda mistifikasiyanın bir paradiqma kimi araşdırılmasıdır.

**Dissertasiyada istifadə olunan metodoloji prinsiplər.** Dissertasiya işində müqayisəli-tipoloji və struktur-semiotik təhlil prinsipləri əsas götürülmüşdür.

Ədəbiyyatşünaslıq poetikası ilə dilçilik poetikasının nəzəri məsələlərinin vəhdəti diqqətə alınmış, mistifikasiya problemi mexaniki mənada deyil, ədəbi-estetik, eyni zamanda tarixi kontekstdə təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.**Dissertasiyanın elmi nəticələrindən ədəbiyyatımızın müasir nəsrinin poetikasının öyrənilməsində, bu nəsri təmsil edən yazıçıların folklora, milli ədəbi yaddaşa qayıdışlarındakı müştərək və fərqli sənətkarlıq məqamlarını öyrənməkdə, ədəbi təsirin milli bədii təcrübədə kəsb etdiyi özəllikləri üzə çıxarmaqda yararlanmaq olar. Dissertasiyanın müddəalarından bakalavrlar, magistrlar, doktorantlar faydalana bilərlər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya işi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri müəllifin Azərbaycan, Türkiyə və Ukraynada çap olunmuş məqalələrində və elmi konfrans materiallarında öz əksini tapmışdır. Dərc olunmuş məqalələr və konfrans materialları işin məzmununu tam əhatə edir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə doktoru dissertasiyaları qarşısına qoyulan tələblərə uyğun qaydada tərtib edilmişdir.

Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 8321, I Fəsil – 98187, II Fəsil – 83522, III Fəsil – 68987, Nəticə isə 6508 şərti işarədən ibarətdir.

Tədqiqat işinin ümumi həcmi 265525 şərti işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş"ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, dissertasiyanın elmi yeniliyi, müdafiəyə çıxarılan müddəaları, tədqiqat metodları, obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, strukturu AAK-ın tələblərinə uyğun şəkildə göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Mistifikasiya ədəbiyyat paradiqması kimi"** adlanır və iki paraqrafdan ibarətdir. **"Ədəbi mistifikasiyanın mahiyyəti və funksiyası"** adlı birinci paraqraf mistifikasiyanın bədii yaradıcılıqdakı rolu tədqiq olunur.

İncəsənətdə, xüsusilə ədəbi-bədii yaradıcılığın nümunələrində mistifikasiyanın iki növünə təsadüf olunur: 1) ilkin, yaxud birbaşa mistifikasiya; 2) bilavasitə yaxud metamistifikasiya.

Hadisə və nəsnənin aparıcı və spesifik tərəflərini qoruyub saxlamaq cəhdi resipiyentin (oxucunun, tamaşaçının, dinləyicinin) təsvir olunan nəsnə və hadisələri tanıması, gerçək dünyada rast gəldiyi və yaxud haqqında bu və ya digər mənbədən məlumat əldə etdiyi nəsnə və hadisəyə uyğun gəlməsi ilə əlaqədardır. Deməli, resipiyentin yaradıcı müəllif tərəfindən mistifikasiya hədəfinə çevrilməsinin bir sıra şərtləri mövcuddur: a) müəlliflə resipiyent arasında heç bir sənəddə təsbit olunmamış, lakin uzun əsrlər boyu davam edən, ənənəyə söykənən, sanki hər iki tərəfin könüllü şəkildə gözlədiyi müqavilə mövcuddur: müəllif müəyyən anlaşıqlı işarələr sistemi ilə resipiyenti aldatmaq niyyətində olduğunu biruzə verir, resipiyent də könüllü şəkildə müəllifin təklif etdiyi virtual bədii dünyaya daxil olmaq aktı ilə aldanmağa hazır olduğunu bildirir; b) müəllifin yaratdığı "ikinci" virtual bədii dünya müəyyən cəhətləri ilə mütləq resipiyentə tanış olmalıdır. Bu o deməkdir ki, müəllif təsvir etdiyi hadisə və nəsnələr haqqında həqiqətəuyğun və bəzi hallarda hətta həqiqi məlumat verməlidir. Bu mistifikasiya yaradan müəllif və mistifikasiyaya hazır olan resipiyent arasında "bağlanmış" müqavilənin əsas şərtlərindən biridir, yəni oxucu təxəyyülündə yer ala bilməyən mistifikasiya ya mövcud deyil və ya inandırıcı hesab edilmir; c) müəllif oxucunu həqiqətən aldatdığını imitasiya etmək üçün həqi-

qətəuyğun yaxud həqiqi hadisələrin axarında, yaxud nəsnələrin xüsusiyyətlərində dəyişikliklər etməlidir; ç) bu iki cəhətin (həqiqət və uydurmanın) üzvi vəhdəti mimesis aləminə daxil olmaq istəyən resipiyent üçün şərait yaradır; resipiyent oyun prosesində olduğu kimi həm virtual, həm də real aləmə daxil olma dərəcəsi və onda təsvir olunan hadisələri yaşaması həqiqiliyin (həqiqətəuyğunluğun) və uydurmanın üzvi vəhdətinin səviyyəsindən, habelə oxucunun hazırlıq səviyyəsindən, statusundan ("sadəlövh oxucu", real oxucu, "ideal oxucu" və s.) asılıdır. Adətən oxucuların çoxu bu uydurma və reallığın vəhdətinə uyur və bədii əsərin bir növ iştirakçısına çevrilir. Daha fərqli bir baxışla hadisələri izləməyi bacaran resipiyent isə müəllifin uydurduğu məqamla reallığı qarşılaşdırır və bu zaman müəllifin ecazkar sehrinin gücünü müəyyənləsdirir.

Bilavasitə, yaxud metamistifikasiyanın da öz növbəsində 2 növü mövcuddur: a) müəllif bu və ya digər səbəbə görə oxucunu azdırmaq üçün öz müəllifliyini gizlədir. Buna Prosper Merimenin "Klara Qazülün teatrı", "Güzla" əsərləri misal ola bilər. Burada yazıçı əsərlərin müəllifinin başqası olduğunu göstərir. 2) Müəllif əsərin hüdudları daxilində bir tərəfdən bu və ya digər personajı həqiqəti dərhal anlamaq imkanından məhrum edir.

Deməli, əhəmiyyətli ədəbi əsər yaratmaq üçün mistifikator özündən kənarda olan insanları aldatmaq bacarığına malik olmalıdır. Yazıçılar bunun üçün "şüur axını"texnikasına daha çox müraciət edirlər.Amerikan yazıçısı Ceyms Coys bu üsuldan ustalıqla faydalanmışdır.

"Uliss" əsərində Ceyms Coys Bibliya əfsanələrindən, İrland mifologiyasından bol-bol istifadə etmişdir. "Şüur axını"nın ən bariz nümunəsi olan on səkkizinci bölümdə Coys ardıcıl səkkiz cümlədə durğu işarələrindən istifadə etməmişdir. İngilis dilində "run-on sentence" adlandırılan belə cümlələr "şüur axını"nda yazılmış bir mətn üçün çox xarakterik cəhətlərdən biridir.

Coys özünün digər bir əsəri olan "Finniqan üçün yas" əsərini də eyni texnikadan istifadə edərək yazmışdır.

"Şüur axını"ndan mistifikasiya məqsədilə istifadə edərək yazan digər bir ədib məşhur İngilis yazıçısı Virciniya Vulfdur. Virciniya Vulf iki əsərində "Missis Dellouey" və "Mayak"

əsərlərində “şüur axını” texnikasından istifadə etmişdir. “Mayak”bu mənada daha maraqlıdır.Bu əsərdə Virciniya Vulf öz obrazlarının beyninə daxil olur və onların fikirlərini “şüur axını” texnikası ilə əks etdirir[9].

Uilyam Folknerin “Mən öləndə”əsəri də “şüur axını” texnikası üzərində qurulmuşdur. Onda çoxlu təhkiyəçilər və müxtəlif ölçülü hissələr vardır. Kitabın on doqquzuncu bölməsi təkcə beş sözdən ibarətdir: “Mənim anam balıqdır”[10]. Bu, oxucuda mistifikasiya təəssüratı yaradır.

Virciniya Vulf və Ceyms Coys kimi Folkner də “Şüur axını”nın pionerlərindən hesab edilir. Folkner bu texnikanı ilk olaraq “Səs-küy və qəzəb” əsərində işlətmişdir. İlk əsərin uğurluluğu yenidən bu texnikanı bədii əsərə gətirməyə onu həvəsləndiridi. Məhz “şüur axını” vasitəsilə Folkner cənub həyatının hər gününün metafizikasını yarada bilir.

Mistik təzahürlərin ifadəsində yeni forma və üsullar meydana gəlsə də, o, yaradıcılıqda müasir dövrün hadisəsi deyil. Xalq yaradıcılığında, əfsanə və dastanlarında mistik elementlərdən geniş istifadənin şahidi oluruq.

Hər hansı bədii nümunə həyat hadisəsini imitasiya edir, onun dünyanı subyektiv rakursdan müşahidəsinin və dəyərləndirməsinin yekunu kimi meydana gələn modelinə əsaslanır.

Bədii əsərlərdə hadisənin bədii təcəssümü bir sıra öncül şərtlərin həyata keçirilməsini tələb edir. Mistifikasiya ədəbi üsulundan istifadə əslində həqiqətəuyğunluğun, yaxud reallığın (əlbəttə ki, uydurulmuş fiktiv dünyanın çərçivəsində) gözlənilib-gözlənilmədiyinin üzə çıxarılması və bunun səbəblərinin əsaslandırılması məqsədini daşıyır: a) müəllifin təsvir etdiyi dünya fiktivdir (fiksiyadır), yəni uydurmadır; b) lakin müəllif oxucudan gizlətmədiyi yalanı maksimum ört-basdır etməyə can atmalıdır və nəticədə bu uydurma dünyada cərəyan edən hadisələr həqiqətəuyğun olmalıdır.

Mistifikasiyanın təzahür formasının ən bariz nümunələrindən

[9]Woolf, V. To the Lighthouse / V.Woolf. – Hertfordshire: Wordsworth Editions, – 1994. – 176 p.

[10] Faulkner, W. As I Lay Dying / W.Faulkner. – New York: Vintage, – 1991. – 267 p.

biri, fizioloji məqamla ruhi halın üzləşməsi hadisəsi kimi dəyərləndirilən yuxudur. Yuxu həm fizoloji, həm də ruhi mənada anlaşılması çətin bir prosesdir ki, biz bunu çox zaman o dünya ilə bu dünya arasındakı bir aralıq hesab edirik.

Yuxu ilə bağlı ədəbi nümunələrdə mistik elementlərə çox rast gəlinir. Bu baxımdan Afaq Məsudun, Kamal Abdullanın əsərlərindəki sirli yuxular diqqəti cəlb edir. Kamal Abdullanın "Yarımçıq əlyazma"sındakı Dədə Qorqudun yuxuları həm fizioloji, həm də mistik hal kimi çox maraqlıdır. Bu yuxular keçmiş və gələcəkdən xəbər verir. Hadisələrin həllində Dədə Qorquda yardımçı olur. Onu çıxılmaz vəziyyətlərdən xilas edir.

Birinci fəslin ikinci paraqrafı **"Ənənəvi Şərq ədəbiyyatı və dünyagörüşü sistemində mistifikasiya"** adlanır. Ənənəvi klassik Yaxın Şərq düşüncə tərzində mistikanın təzahür formaları ilə müasir mərhələdə mistikadan çox mistifikasiya kimi özünü biruzə verən hadisədən fərqlənir. Əgər klassik Şərq düşüncə tərzində sənətkar özü sirlərin içində batıb qalırsa və bu haqda oxucusuna məlumat verib onunla birlikdə sirri axıra kimi açıqlamırsa da hər halda onun vüsəti haqqında məlumat verirsə, müasir düşüncə tərzində sənətkar hər şeydən xəbərdardır, fikri uydurma vasitəsilə oxucunu aldatmaqdır. Oyun qurmaq, bu oyun içində oxucunu çoxgedişatlı fəndlərlə qarşılaşdırmaq və gizli məqamlar qarşısında düşündürmək müəllifin ən əsas missiyasıdır. Həyatı mistikləşdirmək, mistik üslubdan professional şəkildə istifadə edərək oxucunu qurduğu oyuna inandırmaq sənətkarı həm çətin, həm də maraqlı ədəbi yolla getməyə sövq edir.

Klassik Şərq poeziyasında və düşüncə tərzində mistikaya münasibət son dərəcə ciddidir, onunla təmasa girən, yaxud təmasa girməyə məcbur olan şəxs ona qarşı heyranlığın, qorxunun və pərəstişin çulğalaşmasından əmələ gələn mütləq ciddiliyə əsaslanan bir mövqe nümayiş etdirir.

Mistik ideyalar bütün dinlərdən öncə mövcud olmuşdur. Əlbəttə ki, sufizmdə, tipoloji baxımdan digər dini konsepsiyalarda mövcud olan mistik cərəyanların analoji xüsusiyyətlərini üzə çıxarmaq, onların arasında müəyyən paralellər aparmaq mümkündür. Lakin bunu bütünlüklə mistik cərəyanın digərinə birbaşa təsiri kimi

dəyərləndirməyimiz düzgün olmaz: "Şübhəsiz ki, bütün mistik axtarışların əsasında insanın dinə ümumi və əbədi tələbatı durur. Bu xüsusilə məlum ruhi və sosial şərtlər mövcud olanda özünü parlaq şəkildə biruzə verir"[11].

Mistisizmin ətraflı şəkildə tədqiqi sübuta yetirmişdir ki, bu dünyaduyumu forması dünyanı və gerçəkliyi dini kateqoriyalar vasitəsilə dərkin müəyyən mərhələsində meydana gəlir. Məhz bu məqamda mifoloji dünyaduyumla dini dünyaduyum arasında əsas fərq meydana çıxır: mif insana dünyanı, onun nəsnə və hadisələrini bütöv şəkildə üzvi vəhdətdə dərk etməyə imkan yaradır. Dini dünyagörüşündə insanla dünyanın vəhdəti pozulur, insan hadisələri və nəsnələri ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş şəkildə dərk edir ki, bu da onların arasında dərk edilməsi qeyri-mümkün olan boşluqların yaranmasına səbəb olur. Bu boşluqlar dindar insan üçün dünyaya mistik münasibət meydanı açır: bu dərkolunmaz boşluqlar təkcə nəsnə və hadisələr arasında mövcud olan əlaqələrə deyil, nəsnə və hadisələrin özlərinə də şamil olunur.

Beləliklə, din mistikanın inkişafı üçün zəmin yaradır. Əgər dərk edə bilmirəmsə, yaranan suala cavab verə bilmirəmsə, deməli, bu, mənim gücüm xaricindədir və bir sirdir, dərki mümkünsüzdür və ya Tanrıya məxsus hər hansı qeyri-adi vəhylə aşıla bilən məsələdir. Açar özü də bir növ tam dərk edib anlaya bilmədiyimiz Tanrıdadır. Deməli, dərk etmədiyimiz nə qədər mistikdirsə, dərkə gedən yol onun anlaşılması da bir o qədər mistik səciyyə daşıyaraq sirli və qaranlıqdır. Bu isə ümumiyyətlə dünyaya mistik münasibət bucağı formalaşdırır.

Monoteist dinlərdə, o cümlədən islamda mistikanın qanunauyğun şəkildə meydana gəlməsi insanın Allahdan bu və ya digər səbəblərə görə aralı düşməsi və ona qovuşmaq istəyinin yaratdığı həsrət ilə bağlıdır. Faktiki olaraq bütün dinlərdə mistika insanla Allah arasında mövcud olan ucu-bucağı görünməyən zaman və məkan məsafəsini bir anın içində dəf etməyə imkan verən qısaqapanma, üsul və vasitədir.

Zahidlər asketizmi təbliğ edir və yaymağa cəhd göstərirdilər,

---

[11]Фильштинский, И. М. История арабской литературы X-XVIII века / И.М.Фильштинский. – Москва: Наука, – 1991. – с. 321

Rindlər isə varlığın bütün gözəlliklərində Allahı seyr edirdilər. Təsəvvüfün nümayəndələri öz fikirlərini, adətən, üstüörtülü şəkildə, simvollardan istifadə etməklə, alleqoriyalara müraciətlə çatdırmağa üstünlük verirdilər. Bu üsul mətni sirli mövcudluğa çevirir və oxucu ilə ünsiyyətdə müəllif respiyenti sınaqlara çəkir, onu verəcəyi böyük imtahanlara hazırlayırdı. Belə vəziyyətdə müəllif-oxucu münasibətinin özü də mistifikasiyalı proses kimi dəyərləndirilə bilər.

"Şaman təlimində ruhlarla ünsiyyət, ruhların şüa ilə yerə enməsi və yenidən öz əslinə qovuşması, rəqs və səma məclisi kimi tipoloji hallar təsəvvüf və irfanla qismən və özünəməxsus şəkildə uzlaşan amillərdir"[12].

Mistika adi mənada insanın müəmmalı şəkildə bağlı olduğu və ya əlaqə qura bilməsi mümkün olan fövqəltəbii qüvvələrin mövcudluğuna inamdır. Bu inamın əsasında insanın dərk edə bilmədiyi hadisələr durur. İnsan onun düşüncə və dərkindən kənarda mövcud olan hər bir şeyə sirli bir nəsnə kimi baxır. Eyni zamanda bu sirr onu özünə cəlb edir. İnsan onu dərk etmənin yollarını arayır. Dərk edə bilmədiyi məqamları aşkarlamaq, onu dərkə aparan yeni yollar aramaq insana keçilməz gəldiyindən mistikaya köklənir. Məhz buna görədə zaman-zaman müəyyən bir dövr üçün mistik və sirli görünən hadisə zaman keçdikdən sonra məhz insanın öz sələfi vasitəsilə üzə çıxır, mahiyyəti dərk edilir. Bu yolla da elmi əsasını tapır. Deməli, müəyyən zaman kəsimində sirrli görünən (buna misal kimi təbiət hadisələrini göstərmək olar) sonradan elm inkişaf etdikcə mahiyyəti dərk edilənə çevrilir. Dini baxımdan isə insanın vasitəsiz, səmimi ürəkdən, Allahla birləşməsinə dair sakral mahiyyət daşıyan təcrübədir.

Allahla birbaşa, vasitəsiz əlaqə qurub onunla bir olmaq, vəhdət təşkil etmək mistisizmin əsas mahiyyətini təşkil edir. Mistisizmlə bağlı olan dini-fəlsəfi cərəyanlar bəşəriyyətin bütün məlum olan dinlərində - buddizm, iudaizm, hinduizm, xristianlıqda müşahidə olunur.

Bütün dini konsepsiyalar elə bir müddəadan çıxış edirlər ki, ruhun kamilləşməsində ən önəmli yeri insanın özünü dərk etməsi

---

[12]Göyüşov N. Quran və irfan işığında: hikmət və düşüncə karvanı həqiqət sorağında / N.Göyüşov. – Bakı: İqtisad Universiteti nəşriyyatı, – 2004. – s. 56.

tutur. Yalnız özünün daxili aləminin sirlərini özü üçün aydınlaşdırmaqla insan ruhunu kamilləşdirməyə qadir olar. Bundan sonrakı mərhələdə Allahla bütünləşmə, bir olmağa çatmaq mərhələsi gəlir ki, bu da yalnız mistik təcrübə ilə mümkündür.

Upanişadlar insanın həyatının dörd durumu haqqında təlimi açıqlayırlar: 1) ayıqlıq, 2) yuxu, 3) yuxu görmədən dərin yuxu, 4) transsendentallıq; bu halda ali Reallıqla qovuşan insan ifadəsi qeyri-mümkün olan duruma düşür. Upanişadlar yeni doğulmalar zənciri ilə bağlı olan "karma" anlayışına aydınlıq gətirirlər. Həm insanın durumları, həm də karma ilə bağlı təlimlər mistik xarakter kəsb edirlər.

Bəzi mistik formalar mifologiyada öz əksini taparaq mifik düşüncə ilə mistika arasında körpü, əlaqə rolunu daşıyır. Bu təbiət hadisələrinin, insanın özü ilə bağlı fenomenlərin son dərəcə mürəkkəb, dinamik və ziddiyyətli olmaları ilə bağlı idi: ilk baxışdan bu və ya digər mifin axarına düşmüş, izah olunmuş hadisə birdən-birə özünün gözlənilməz cəhətlərini biruzə verirdi ki, bu da mifə mistik çalarlar gətirirdi. Lakin bununla belə, əvvəlcə fenomenlə bağlı rəvayət uydurulur, sonra isə ona mistik don geyindirilir. Buna görə də mifologiya ilkindir, mistika isə ondan sonra yaranmışdır. Mifoloji gerçəkliyi ədəbi mətnlərə əsasən mif daxilində görmək, reallaşmış formasını canlandırmaq olar, lakin mistikada isə bu qeyri-mümkündür. Eyni zamanda müəyyən cəhətlərilə bir-birində təzahür etmə xüsusiyyətlərinə malikdirlər. Belə ki, bəzən mifologiyada elə hadisələr baş verir ki, onun izahı, canlandırma şəkli mümkün olmur və bu mistikaya çevrilir. İnsanın qavraya bildiyi gerçəklik özünü mifoloji şüurda daha geniş şəkildə əks etdirir. L.Levi-Brül mifoloji şüuru "məntiqə qədərki" adlandıraraq qədim zamanlarda müasir insan şüurundan fərqli olaraq əşyaların obyektiv xüsusiyyətlərinə qarşı subyektiv münasibətlə yanaşıb onun mistikliyini önə çəkmişlər[13].

Mifologiya ilə mistikanın əlaqəli olması ilə yanaşı, mifoloji gerçəklik kontekstindən onları ayıran cəhətlər də çoxdur. Mifologiyada allahlar və ilahələr insanları idarə edir, onların bütün

---

[13]Леви-Брюль, Л. Сверхестественное в первобытном мышлении / Л.Леви-Брюль. – Москва: Педагогика-Пресс, – 1994. – s. 8.

arzu və istəklərinə, giriş və çıxış nöqtələrinə, yoluna, taleyinə təsir göstərir. Yarımallahlar olan insanlar isə (Bilqamıs, Herküles və s.) daxil olduqları insan cəmiyyətində nəyisə dəyişmək uğrunda uzun bir yola çıxırlar. Bu yolda onların qarşılarına çıxan maneələri dəf etmək üçün əllərindən gələni edir, mümkün qədər məqsədlərinə nail olmağa cəhd göstərirlər. Mistikada isə Absolyutla ruh birbaşa əlaqəlidir. Ruh Allahı görmür, ona can atır. İnsan ruhu nə qədər Allahın bir parçası olsa da, bir o qədər ondan uzaqdır. Ona çatmaq üçün uzun yol qət etməli, mənəvi kamilliyə çatmalıdır. Bunun üçün isə onun bir yolu var, mənəvi qovuşmaya doğru özünü təslim etməlidir. Bunu biz birbaşa sufizmdə aydın görə bilirik. Beləliklə, mifologiya ilə mistika nə qədər yaxınlıqları ilə seçilsələr də, bir o qədər də ayırıcı nöqtələri ilə özünəməxsus xüsusiyyətlərə malikdirlər.

Şumerlərin məşhur "Bilqamıs" eposunda insanın əbədi həyat, ölümsüzlük axtarışı məhz mistik anlayışın ilk təzahür formalarından biridir. İnsan hər zaman, belə desək daha düzgün olar ki, dünyaya gəldiyi və yaşadığı zaman kəsiyindən etibarən ölüm və onun doğurduğu səbəblərlə hər zaman maraqlanmışdır. Ölümü və onu doğuran səbəbləri araşdırmaq insanın əbədi həyata can atması ilə bağlıdır.

Mistifikasiya doğuran digər konsepsiyaya misal olaraq mistik öncəgörümlülükdən misal gətirmək olar. Gələcək haqqında təsviri mülahizə qismində incəsənətdə öncəgörənlik mümkün və üstün tutulan variantların qabaqlanması prinsipi böyük rol oynayır. Bu gələcəyin mədəni-tarixi dərkinin tələblərinə optimal şəkildə cavab verir.

Dini mistifikasiyanı birmənalı şəkildə yalnız hansı isə əsrarəngizliyə, mənasını dərk etmək mümkün olmayan sirrə aid etmək düzgün deyil. Bu məqamın olması ilə yanaşı məhz bu sirri, daha doğrusu, əsrarəngizliyi qabartmaq üçün gerçəklik də mövcud olmalıdır; yəni mistika yalnız gerçəkliyin fonunda özünü tam biruzə verə bilər. Mistika mütləq şəkildə eyni zamanda ideal məqamı da ya əyani, ya da virtual şəkildə nəzərdə tutur: idealı sınağa çəkmədən birbaşa təqdim etmək qeyri-mümkündür. Birbaşa təqdim olunmuş ideal ideallıqdan məhrum olur, adi bir duruma çevrilir. İdeal yalnız onda nəzərə çarpır ki, ədəbi-bədii nümunənin müəllifi onu "əzablı

yollar"dan keçirir, onun tədricən təşəkkül tapma prosesini təsvir edir.

Şərq ədəbiyyat ənənələrinin, xüsusən sufizmin formalaşdırdığı poetik strukturlar XX əsr ədəbiyyatımızda yeni təzahürlərlə, eləcə də mistifikasiya yaradan element və situasiya şəklində davam etmişdir. "O (sufizm-X.C.), özünün əsrlərcə yaşayan üstünlüyünü başa vursa da, genetik kod hüququ qazanmış və sonrakı mərhələlərdə də bədii strukturlarla ömrünü davam etdirməkdədir" [14].

Dissertasiya işinin bu fəslində araşdırılan problemlərə aid nəticələr çap olunaraq elmi ictimaiyyətə təqdim edilmişdir.[15,16,17]

Dissertasiya işinin **"Müasir nəsrdə mistifikasiyanın əsas təzahür formaları"** adlandırılan ikinci fəsli "**Müasir nəsrdə müəllif mövqeyinin mistifikasiyası**" və **"Nəsrdə insanın mistifikasiyası"** paraqraflarına ayrılır.

Birinci paraqrafda qeyd olunur ki, müəllifin mitifikasiya olunması əsasən aşağıdakı formalarda özünü göstərir:

Birincisi, müəllifi məlum olmayan (anonim) ədəbi-bədii nümunənin atribusiya olunması zamanı müəllif kimliyi ətrafında rəvayətlər yarana və müəlliflik mistifikasiya oluna bilər.

İkincisi, konkret müəllif əsər yaradır və onu bilərəkdən xalq yaradıcılığı kimi təqdim edir. Məsələn, Ceyms Makferson tərəfindən xalq deyim tərzindən folklor mövzularından istifadə edilərək "Balladalar" yaradılır və onu mifik (uydurma) Ossiyanın adına çıxırlar.

Üçüncüsü, müəllif bilərəkdən öz adını gizlədir və uydurma müəlliflər adından ədəbi-bədii nümunəni təqdim edir.

Əgər birinci halda mistifikasiya təbii prosesin nəticəsi kimi meydana gəlirsə, ikinci və üçüncü hallarda müəlliflər oxucunu müəyyən məqsədlərlə "azdırmaq" naminə mistifikasiyaya müraciət

---

[14]Məmməd, T.Q. Neosufizm: yaradıcılıq və nəzəriyyə / T.Q.Məmməd. – Bakı: Xan, – 2016. – s. 11

[15]Cəfərova (Əliyeva), X.E. Mifoloji gerçəklik və mistika // – Bakı: Filologiya məsələləri, – 2013. №1, – s. 310-313

[16]Cəfərova (Əliyeva), X.E. Şərq ədəbi düşüncə tərzində mistika və mistifikasiya // XII Beynəlxalq Simpozium "Şərq və Qərb: mədəniyyətlərin inteqrasiyası, – Eskişehir, – 30 mart, – 2021, – s. 44-48

[17]Cəfərova (Əliyeva), X.E. Mistifikasiyanın ədəbi-estetik xüsusiyyətləri // "Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı" mövzusunda beynəlxalq elmi konfransı, – Sumqayıt, – 2021, – s. 103-106

edirlər.

Potensial resipiyentin aldanma əsasında dünyanı dərk etməyə meyli incəsənət, o cümlədən ədəbi-bədii nümunələr yaradan şəxslər tərəfindən istifadə olunur.

Bəzən əks mistifikasiyaya yol verilir. Buna XIX əsr alman şairi və tərcüməçisi Fridrix Bodenştedin Azərbaycan şairi Mirzə Şəfi Vazehin ədəbi irsinə münasibəti misal ola bilər.

Gözə görünən və gözə görünməyən, dərk olunan və dərk olunmayan nəsnə və hadisələrə mistik don geyindirib onları resipiyentlərin şüuruna, düşüncə tərzinə daxil etmək sənətkarların əsas üsul və vasitələrindən biridir.

Ədəbi mistifikasiyanın əsas əlamətlərindən biri başqa adın həqiqi müəllif tərəfindən uydurulması müvəqqəti və situativ xarakter kəsb etməsi ilə bağlıdır.

Müəllif adlarının dəyişdirilməsi heç də həmişə mistifikasiya xarakteri daşımır. Ədəbi təxəllüslərin, soyadların mövcudluğu bədii əsərin real müəllifliyinə xələl gətirmədiyi kimi fiktiv səciyyə də daşımır. Bu baxımdan mistifikasiya uydurma ada deyil, uydurma müəllifliyə aid edilir.

Müəllif kimliyinin gizliliyi yolu ilə yaranan mistifikasiyadan başqa onun öz mövqeyini gizlətməyə çalışması və ya onu mistifikasiya üsulları ilə ifadə edə bilməsi halları da mümkündür.

Müəllif mövqeyinin mistifikasiyası onun aid olduğu yaradıcılıq metodu ilə sıx əlaqədədir. Əgər realizm həyatı əsasən tarixi gerçəkliklə bağlı açıqlamağa meyl edirsə, romantizm daha çox ideallaşmaya can atır. Bu isə o deməkdir ki, romantizm mistifikasiyaya daha böyük imkanlar yaradır; müəllif ideallarını və mövqeyini ifadədə mistifikasiyadan geniş istifadə edir.

Müəllifin mövcudluğunun şübhə altına alınması və ya mətndə özünü gizlətmə cəhdi -müəllif mistifikasiyası müxtəlif məqam və formalarda mövcud olmuşdur. Bu mənada, müəllifin statusu ilə bağlı müxtəlif konsepsiyalar mövcuddur. Məsələn, a) müəllif məlum olmasa belə yaradıcı başlanğıcdır; b) müəllif mediumdur; c) müəllif ölmüşdür və sairə. Müəllifin qeyri-müəyyənliyi, mistifikasiyası bu problemin həllinə, məsələn, müəllifin yaradıcılığında subyektiv və obyektiv prinsiplərin münasibətini üzə çıxarmağa yardım edə bilər,

yəni bu gün təkcə ədəbiyyatşünaslıqda deyil, ümumiyyətlə sənətşünaslıqda mövcud olan problemi özünəməxsus şəkildə çözməyə imkan yaradar.

İkinci fəslin ikinci paraqrafında mistifikasiyanın insanın mahiyyəti ilə əlaqəsi araşdırılmışdır. Burada insanın və onun mövqeyinin müəyyən olunmasında psixoloji durumun mühüm rolu xüsusilə qeyd olunmalıdır. Müəllifin və ya ədəbi qəhrəmanın psixoloji durumu mistifikasiya ilə bağlı situasiyaların əsərdə yer almasına yol açır. Bu baxımdan Perekin yaradıcılığı maraqlıdır. Yekaterina Dmitriyeva – "Məhdudiyyətin zövqü: Sirli yazıçı Jorj Perek"adlı məqaləsində fransız yazıçısı XX əsrin 60-cı illərində sonuncu avanqard və posmodernizmin ilk nümayəndəsi kimi tanınmış Perekin yaradıcılığından bəhs etmiş və onu yüksək qiymətləndirmişdir[18]. Əsərlərində mistifikasiya üsullarından istifadə edərək onları bədii vasitələrlə həll etməyə can atan bu məşhur yazıçının ön sıralarda yer almasını təsadüfi hesab etmək olmaz.

Uilyam Ceyms "Dini təcrübənin çox obrazlılığı" əsərində Edinburq universitetində oxuduğu mühazirələrinin birində qeyd edirdi ki, Antik misteriyanın hər vəchlə əsrlərlə çox məxfi şəkildə qorunmasının səbəbi onun bəşəriyyətə gətirə biləcəyi fəlakətlərlə bağlıdır. İstənilən mistik kult insana ilahi güc verə biləcək, onu tanrı səviyyəsinə qaldıra biləcək hansısa sirli müdrikliyin mövcudluğu ideyasına əsaslanır. Mistifikasiya mistisizm əsasında təşəkkül tapır. Yəni ancaq hiss edib görmək qabiliyyətində olmayanı aldatmaq olar. Mistiklər, məsələn, sufilər hiss edirlər, lakin görmək və izah etmək sanki onları çaşdırır. İnsanın varlığında mistik məzmun axtarmaq, həmin məzmunun açılması üçün mistifikasiyadan istifadə etmək postmodern nəsrin əsas üsullarındandır. Postmodernizmin mühüm paradiqmasına çevrilən mistifikasiya əsasən də müasir yazıçıların vaxtilə keçmişdə baş vermiş faciələrin nüvəsini başa düşməkdə çətinlik çəkən oxuculara bunu göstərmək və hiss edərək hadisələri anlamağa kömək edən mövzulara üz tutmasında ən dəyərli vasitəyə

---

[18]Дмитриева, Е. Удовольствие от ограничения: Загадочный писатель Жорж Перек: Жорж Перек и комбинаторная литература // – Новое литературное обозрение. Теория и история литературы, критика и библиография, – 2010 (июнь). №106 (6), – s. 219-231.

çevrilir ki, bu üsuldan istifadə edən yazıçılardan biri də Conatan Safran Foyerdir.Hazırki dövrə qədər Azərbaycan ədəbiyyatşünaslığında yaradıcılığı bir o qədər də diqqət çəkməyən Conatan Safran Foyer müasir postmodern ədəbiyyatın önəmli simalarından sayılaraq müraciət edilmiş, təqdim edilən araşdırma və təhlil işində "Hər şey işıqlandırılır" əsəri ilə tədqiqat işinə daxil edilmişdir.

Amerikan postmodern ədəbiyyatının əsas nümayəndələri sırasında C.Bart, T.Pinçon, D.Bartelmi, R.Savenik, P.Federman kimi sənətkarların adları çəkilir. Onlar yalnız bədii əsərlər deyil, həm də postmodern düşüncə tərzinin, ədəbiyyatının nəzəri tərəflərinin tədqiq olunması, araşdırılması yolunda önəmli addımlar atmışlar.

Özünün postmodernizmə olan münasibətini və onda olan yerini bildirməməsinə baxmayaraq, onun önəmli və aparıcı nümayəndələrindən sayılan "qara yumor" məktəbinin yaradıcılarından olan amerikan yazıçısı Tomas Pinçonun yaradıcılığı olduqca zəngindir.

Beləliklə də, postmodern ədəbiyyatın görkəmli yazıçılarından və mistifikatorlarından olan Tomas Pinçon öz yaradıcılığında "qara yumor" məktəbinin xüsusiyyətlərini əks etdirmişdir. Bununla da o, dünya ədəbiyyatında bir sıra yeniliklər gətirərək onu zənginləşdirmişdir. Pinçon insanın təbiətinə "qara yumor"la işıq tutarkən mistifikasiyadan istifadə etmiş və dünya ədəbiyyatında həmin üsulun inkişafındaönəmli rol oynamışdır. İkinci fəslin məzmununu əks etdirən məqalə və məruzələr çap olunmuşdur[19,20,21].

**"Azərbaycan nəsrində mistifikasiya"** adlı üçüncü fəsildə də tədqiqat iki paraqraf üzrə aparılmışdır."Yusif Səmədoğlu və Anarın yaradıcılığında mistifikasiya" adlandırılan ilk paraqrafda adı çəkilən müəlliflərin əsərlərindən seçilən nümunələr əsasında problem araşdırılır.

---

[19]Cəfərova (Əliyeva), X.E. Postmodernizmdə əlaqəsizliklərin əlaqəsi, natamamlığın tamlığı // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2013. №4, – s. 118-120.

[20] Джафарова (Алиева), Х.Е. Основные особенности школы «черного юмора» и творчество Томаса Пинчона // Культура народов Причерноморья, – 2014. №274, – s. 43-45.

[21]Cəfərova (Əliyeva), X.Ə. Conatan Safran Foyerin "Hər şey işıqlandırılır" romanında mistifikasiya yaradan üsul və vasitələr // – Bakı: Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2014. №1, – s. 163-169.

"Qətl günü" romanında mistifikasiyanın mərkəzində ədəbi qəhrəman – şair dayanır. Paradoksal şəkildə bütün diaxron və sinxron hədləri pozub ən ümumbəşəri ideyaları və problemləri əks edən şair bu ideya və problemləri son dərəcə konkret şəkildə ifadə edə bilir: bütün xalqın, bəşəriyyətin problemləri mistik şəkildə fərdin ürək ağrısına çevrilir. Ona görə də ilk baxışdan konkret fərd kimi çıxış edən şairlər hansısa mistik bağla bir-birilə münasibətə girir və bir növ öz cismani və mənəvi ağrıları ilə insanların günahlarını yuyurlar.

Üç paralel və eyni zamanda əlaqəli mərhələdə hadisələr cəmiyyətin beş ilini, on ilini, yüz ilini yox, mifik zamanla, daha doğrusu, fövqəlzamanla - qədim dövrlə müasir dövrün arasındakı inkişafı, bu yolda bir-birinə zidd olan qüvvələrin mübarizəsini, çarpışmasını bədii boyalarla göstərir.

"Qətl günü" bir tərəfdən gerçəkliyin realist inikasıdır, digər tərəfdən mübhəm aləmin mifoloji-mistik təcəssümüdür. Əsərin ən önəmli cəhətilərindən biri bu iki radikal şəkildə fərqli aləmin bir-birinə qaynayıb-qarışması, üzvi vəhdət təşkil etməsidir"[22].

Əsərdə hökmdar, xacə Ənvər, Salahov zülməti təmsil edərək mənfi qəhrəmanların simvoluna çevrilir. Xaos-kosmos münasibət-lərini nizamlayan Baba Kaha romanın mistik ab-havasını daha da artırır.

Baba Kaha bir tərəfdən insanlardan çox uzaqdır, sanki onların gündəlik qayğılarına, problemlərinə cavab vermir, başı qarışıqdır, ümumbəşəri problemləri həll edir, digər tərəfdən son dərəcə həssasdır, son dərəcə dəqiq mizan-tərəzidir. Bu, onun mistikasının əsasıdır. O zülmün, ədalətsizlik və haqsızlığın, pisliyin və qaranlığın düşmənidir. Burada bizim diqqətimizi çəkən digər önəmli obrazlardan biri də məmləkətin ən qoca ağbirçəyi, müsbət qəhrəman olan Üfləmə Qasımın nənəsi ilə Baba Kaha arasında olan və əsərdə oxucuya çatdırılmağa çalışılan mistik əlaqə və mistifikasiyadır. Qoca ağbirçək qadın sanki özündə başlanğıcla sonu birləşdirirdi, onun varlığı bu məmləkətin hələ də mövcud olmasına zəmin rolu oynayırdı.

---

[22]Quliyev, Q.H. Yanıram, a dağlar // – Bakı: "Azərbaycan" jurnalı, – 2010. №12, – s. 10.

Romanda mistik bir element  və varlıq kimi Kirlikir də diqqət cəlb edir.

Mistifikasiya Anarın yaradıcılığı üçün də xarakterikdir.

Anarın "Mən, sən, o və telefon" əsərində bir oyun nəticəsində düşünülüb tapılan telefon nömrəsi obrazların taleyində rol oynayan mistik vasitəyə çevrilir.  Hadisələrin davamı obrazın qurduğu oyun kimi görünsə də onu sanki kənardan bir əl idarə edir və tərəflərin talelərini qovuşdurur.

Anarın"Ağ qoç, qara qoç" əsərində mistifikasiya hadisəsi ilə rastlaşırıq.

Yazıçının özü "Ağ qoç, qara qoç" əsərini utopik və antiutopik nağıllar adlandıraraq iki hissəyə bölmüşdür. "Məlikməmmədin nağılı"nda olduğu kimi, əsərdə də biz iki hissəli bu bölgüyə nəzər yetirsək, bədii mətndə müəllifin üzərində işləmək və qarşısına qoyduğu ideya-motivləri gerçəkləşdirmək üçün əsas götürdüyü zaman fərqliliyi postmodern mistifikasiya paradiqmasının əsas şərtlərindən biri hesab oluna bilər.

Məlik Məmmədin yaşadığı ölkədə hər bir ünsür: hər bir küçə, dağ, bağ, park, meydan, muzey, restoran və s., hətta ərazi bütövlüyü də real dünyanın utopik əsasda işlənmiş milli və bədii ideyasına əsaslanır. Mövcudluğu qeyri-mümkün olan utopiya ilə yazıçı mistifikasiyanı yaradaraq əsərin birinci və ikinci nağılı arasında əlaqə qurmuşdur. Əsərin ikinci hissəsinə keçərkən müəllifin yaratdığı yeni mistifikasiya mühitinin şahidi oluruq. İkinci hissəni oxuyan oxucu üçün sanki birinci nağılda barəsində danışılan utopik ölkə xronoloji zaman dəyişikliyinə uğramışdır.

Əsərdə digər mistifikasiya təzahürü "Məlikməmməd nağılı"ndakı Simurqun bənzər funksiyasını icra edən Ərxan obrazında özünü göstərir.

Resipiyent Ərxanın mistifikasıyanın açılacağını gözlədiyi halda, mövcud obraz getdikcə bu funksiyanı daha da gərginləşdirir. Məliyin düşdüyü bu qaranlıq dünya onun üçün daha da mistikləşir. Ərxan ona ağ və qara qoçun onun üçün gəldiyi səmti göstərir və oxucu mistifikasiya içində qeyb olur.

Beləliklə, resipiyent Məlik Məmmədli və onun mistifikasiyası ilə üz-üzə qalır, hər bir şey onun üçün tamamilə

müəmma içində olur.

**“Kamal Abdulla nəsrində mistifikasiya”** paraqrafında göstərilir ki, Kamal Abdulla yaradıcılığında mistifikasiyanın müxtəlif üsullarından istifadə edir.

“Sirri-zəmanə”, “Birun-əndərun”əsərlərində müəllif sufi elementlərindən istifadə edərək mistifikasiyaya nail olmuşdur.

2004-cü ildə qələmə aldığı “Yarımçıq əlyazma”romanın adından başlayaraq müəllif mistifikasiyaya yol açır. Daha sonra casus oyunu, Dədə Qorqud və Nur daşı arasında əlaqə, Təkgöz, Şah İsmayıl, Hüseyn bəy Lələ obrazlarının mistik durumu mistifikasiyanı daha da gücləndirir.

“Sehrbazlar dərəsi” romanı mistik sirlər üzərində qurulmuşdur. Əsərin ilk səhifələrindən görürük ki, Karvanbaşını bir məsələ çox narahat edir, o bu narahatçılıqdan xilas olmaq üçün sehrbazlar məkanına üz tutmalı olur.

Sehrbazlar dərəsi elə bir məkandır ki, oraya getmək üçün gərək özü də mistifikasiya ilə dolu olan Görükməz təpədən keçəsən.

Sehrbazlar dərəsi əsl sehrlə doludur.Mistik dərənin sehrbazlarının hər birinin özünəməxsus gücləri vardır.

Səyyah sehrbazla Xacə İbrahim ağa arasında keçən dialoqlar, yuxu əsərdəki bir sıra mistifikasiyaların açılmasına kömək edir.

“Sehrbazlar dərəsi” Ağ dərvişlə, onun müridləri ilə bağlı hekayəsindən tutmuş əsərin sonunda Karvanbaşının ailəsinin faciəsi və oğlunun Səyyah sehrbaz tərəfindən xilas edilməsinə qədər mistifikasiya elementləri ilə zəngindir.

Əvvəlki fəsillər kimi, üçüncü fəslin də elmi məzmunu çap

olunan məqalə və məruzələrdə öz əksini tapmışdır [23,24,25,26].

Dissertasiyada verilən nəticələri bir qədər də ümumiləşdirib aşağıdakı şəkildə təqdim etmək olar:

Mistifikasiya bədii təfəkkürün ayrılmaz xüsusiyyətlərindəndir və o, müəyyən inkişaf mərhələlərindən keçmişdir.

Müasir mistifikasiyanın mənşəyində, ilkin modelində mifoloji dünyagörüşü və mistisizm dayanır. Lakin mifologiya və mistisizm mistifikasiyanın poetik strukturunun qurulmasında öz zəngin xəzinəsi ilə iştirak etsə də, meydana çıxan yeni və fərqlidir.

Aparılan tədqiqatda sübuta yetirilir ki, kainatın sirləri, insanın mürəkkəb daxili-ruhi aləmi və əlaqələri ilə üzləşən və onu açıqlamaq yolunda çətinlik çəkən sənətkar istər-istəməz insan xarakterindəki izahı müşkül və yaxud qeyri-mümkün olan cəhətləri görür və bununla bağlı onlara mistik don geyindirir, həmçinin insanın şüur axınını və təhtəlşüurunu mistik formada təqdim edir.

Ümumiyyətlə, tədqiqatdan hasil olan bu qənaətlər belə bir nəticəyə gəlməyə imkan verir ki, 1960-80-ci illərdən etibarən müasir nəsrdə mistifikasiya önəmli bir ideya-estetik vasitə kimi ədəbi-bədii yaradıcılıqda müxtəlif formalarda özünü büruzə verməkdədir.

---

[23]Cəfərova (Əliyeva), X.Ə. Kamal Abdulla və "Sehrbazlar dərəsi" romanının mistifikasiyası // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 2015, – s. 324-326.

[24]Cəfərova (Əliyeva), X.Ə. Kamal Abdulla və "Yarımçıq əlyazma" əsərinin mistifikasiyası // – Bakı: "Poetika.izm" jurnalı (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2016. №2, – s. 30-35.

[25]Cəfərova (Əliyeva), X.Ə. Anarın "Ağ qoç, qara qoç" postmodern romanında mistifikasiyanın təzahür xüsusiyyətləri // – Bakı: "Poetika.izm" jurnalı (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2017. №3, – s. 168-172.

[26]Cəfərova (Əliyeva), X.Ə. Anarın "Mən, sən, o və telefon" əsərində bədii gerçəklik və mistifikasiya // – Bakı: İpək yolu, – 2021. №1, – s. 148-153.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Cəfərova (Əliyeva), X.E. Mifoloji gerçəklik və mistika // – Bakı: Filologiya məsələləri, – 2013. №1, – s. 310-313.
2. Cəfərova (Əliyeva), X.E. Postmodernizmdə əlaqəsizliklərin əlaqəsi, natamamlığın tamlığı // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2013. №4, – s. 118-120.
3. Cəfərova (Əliyeva), X.Ə. Conatan Safran Foyerin "Hər şey işıqlandırılır" romanında mistifikasiya yaradan üsul və vasitələr // – Bakı: Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2014. №1, – s. 163-169.
4. Джафарова (Алиева), Х.Е. Основные особенности школы «черного юмора» и творчество Томаса Пинчона // Культура народов Причерноморья, – 2014. №274, –с. 43-45.
5. Cəfərova (Əliyeva), X.Ə. Kamal Abdulla və "Sehrbazlar dərəsi" romanının mistifikasiyası // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 2015, – s. 324-326.
6. Cəfərova (Əliyeva), X.Ə.Kamal Abdulla və "Yarımçıq əlyazma" əsərinin mistifikasiyası // – Bakı: "Poetika.izm" jurnalı (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2016. №2, – s. 30-35.
7. Cəfərova (Əliyeva), X.Ə. Anarın "Ağ qoç, qara qoç" post-modern romanında mistifikasiyanın təzahür xüsusiyyətləri // – Bakı: "Poetika.izm" jurnalı (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2017. №3, – s. 168-172.
8. Cəfərova (Əliyeva), X.Ə. Anarın "Mən, sən, o və telefon" əsərində bədii gerçəklik və mistifikasiya // – Bakı: İpək yolu, – 2021. №1, – s. 148-153.
9. Cəfərova (Əliyeva), X.E. Şərq ədəbi düşüncə tərzində mistika və mistifikasiya // XII Beynəlxalq Simpozium "Şərq və Qərb: mədəniyyətlərin inteqrasiyası, – Eskişehir, – 30 mart, – 2021,

– s. 44-48.
10. Cəfərova (Əliyeva), X.E. Mistifikasiyanın ədəbi-estetik xüsusiyyətləri // “Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı” mövzusunda beynəlxalq elmi konfransı, – Sumqayıt, – 2021, – s. 103-106.

Dissertasiya işinin müdafiəsi _____________ 2022-ci il tarixində saat _________ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ ___________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 03.02.2022

Kağızın formatı: A5

Həcm: 38962

Tiraj: 100